AzərEnerji®

## “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin

## “Enerji İdarərtmə Siyasəti”

“Azərenerji” ASC elektrik enerjisi istehsalını, ötürülməsini və dispetçer idarəetməsini həyata keçirən öz fəaliyyəti sahəsində regionda aparıcı təşkilatdır.

“Azərenerji” ASC-nin “Enerji İdarəetmə Siyasəti ” Azərbaycan Respublikası Konstitusiyasına, öz nizamnaməsinə, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına, həmçinin, ətraf mühitin qorunması və təbii enerji resurslarının səmərəli istifadəsi sahəsində Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə əsaslanır.

“Azərenerji” ASC-nin “ Enerji İdarəetmə Siyasəti ” ISO 50001:2018 Beynəlxalq Standartına uyğun olaraq, ən müasir texnologiyaları tətbiq etməklə elektrik enerjisinin istehsalı sahəsində enerji effektivliyi aspektlərini yaxşılaşdıraraq insan və ətraf mühitə mənfi təsirlərin qarşısının alınmasına və Dayanıqlı inkişaf naminə təmiz və yaşıl dünya məqsədlərinə nail olmağa yönəlmişdir.

“ Azərenerji ” ASC rəhbərliyi olaraq enerjinin səmərəli istifadə edilməsi məqsədlərinə nail olmaq üçün aşağıdakı maddələri müəssisə daxilində tətbiq etməklə enerjinin səmərəli istifadəsi sahəsində işçi heyətə və müvafiq əlaqəli şəxslərə nümunə təşkil edəcək fəaliyyətlərin icra edilməsi öhdəliyini öz üzərimizə götürürük:

- *İstehlak edilən enerji resurslarından səmərəli istifadə məqsədlərinin müəyyən edilməsi, məqsədlərə uyğun olaraq fəaliyyət tədbirlərinin icrası üçün resursların ayrılması və daimi nəzarəttə saxlanılması,*
- *Bərpa olunan enerji layihələrini dəstəkləyərək və Yaşıl Enerji zonaları yaradaraq istixana qazı effektinin ətraf mühitə olan təsirinin azaldılması,*
- *Əməkdaşlar, xarici tərəfdaşlar və əlaqəli maraqlı tərəflərlə enerji effektivliyi məsələlərində ünsiyyət qurulması, təlim və maarifləndirici vəsaitlərdən istifadə edərək bilik və bacarıqların artırılması,*
- *Enerji idarəetməsi və səmərəliliyi ilə bağlı qanunverici sənədlərə uyğunluğun təmin edilməsi,*
- *Enerjinin istehsalı, ötürülməsi və idarəolunması xidmətlərinin layihələndirilməsi, tədarükü mərhələlərində enerji effektivliyi yönümlü dizayn, məhsul seçimi və əməliyyatların icra edilməsi.*

Azərenerji ASC rəhbərliyi olaraq enerji səmərəliliyi və davamlılığı sahəsində liderliyimizi davam etdirəcək və enerji effektivliyi göstəricilərimizi davamlı olaraq yaxşılaşdıracağıq. Biz bütün əməkdaşlarımızdan bu öhdəliyə uyğun hərəkət etmələrini və enerji resurlarından səmərəli istifadə mədəniyyətini mənimsəmələrini gözləyirik.

Azərbaycan Respublikası “Azərenerji” ASC * Azerbaijan Republic “Azerenerji” OJSC *

**“Azərenerji” ASC-nin prezidenti** **B. H. Rzayev**

“13” 08 2024 cü il